# Əgər mütəşabihlərdən yapışanları görsən, bil ki, onları Allah bu cür adlandırdı və onlardan uzaq durun

Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan mütəşabih ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər".[Əli İmran: 7]. (Aişə) dedi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Əgər mütəşabihlərdən yapışanları görsən, bil ki, onları Allah bu cür adlandırdı və onlardan uzaq durun.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan mütəşabih ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər". Burada uca Allah xəbər verir ki, peyğəmbərinə Quranı nazil edən odur. Quranda bəzi ayələr nəyə dəlalət etdiyi aydın olan, əhkamları məlum olan, anlamı çətin olmayan ayələrdir ki, bunlar kitabın anası və təməlidir. Onlar ixtilaf zamanı müraciət ediləsi ayələrdir. Bir qism ayələr isə bir və ya çox məna daşıyır, bu mənalar bəzi insanlara aydın olmur və ya onlar bu ayə ilə digər ayə arasında ziddiyyət olduğunu zənn edirlər. Sonra Allah insanların bu ayələrə yanaşmasını bəyan edir. Qəlblərində haqdan sapmağa meyli olan insanlar möhkəm ayələri tərk edir, müxtəlif mənalar ehtiva edən mütəşabihlərdən yapışıraq, şübhə yaratmaq, insanları azdırmaq və ayələri öz arzularına uyğun təfsir etmək istəyirlər. Lakin elmdə sabit olanlar isə bunların mütəşabih olduğunu bilərək onları möhkəm ayələrlə təfsir edər, bu ayələrə və onların Pak və uca Allahdan olduğuna iman gətirərlər. Onlar bilirlər ki, bu ayələr qeyri-müəyyənlik mənasını daşımır və ziddiyyət təşkil etmir. Bunu isə sağlam ağıl sahibləri dərk edib, öyüd ala bilərlər. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) möminlərin anası Aişəyə (Allah ondan razı olsun) deyir ki, əgər mütəşabihlərə yapışanları görsə, bilsin ki, onlar Allahın ayədə adı çəkdiyi həmin şəxslərdir: "Qəlblərində əyrilik olanlar". Onlardan çəkinin və onlara qulaq asmayın.